Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# İranın MKİ obyektlərinə zərbələrində Rusiya izi: Kreml şərh etmir

indicə




"Şahed" dronları

İranın Körfəz regionundakı Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) obyektlərinə təşkil etdiyi dron hücumları Rusiyanın bu prosesdə mümkün roluna dair sualları gündəmə gətirib.

Bu barədə ABŞ kəşfiyyatındakı məlumatlara bələd olan dörd mənbə "Reuters" agentliyinə məlumat verib. Amma agentlik rəsmi şəxslərin bu xüsusda hələlik qəti qənaətə gəlmədiyini yazır.

Bununla belə, mənbələr hücumların effektivliyini, yüksək dəqiqliklə reallaşdırılmasını və Rusiyanın İrana göstərdiyi geniş texniki dəstəyi mümkün sübutlar kimi önə çəkirlər.

Kreml iyulun 23-də bu xəbərləri şərhsiz buraxıb.

"Reuters" və digər media qurumlarının məlumatına görə, mart ayında ən azı iki MKİ obyekti hədəf alınıb. Bunlardan birinin ABŞ-nin Ər-Riyaddakı səfirliyində yerləşən MKİ stansiyası, digərinin isə İraqın şərqindəki gizli obyekt olduğu bildirilir. Bəzi mənbələr əlavə MKİ məntəqələrinin də zərbələrə məruz qaldığını desələr də, detalları danışmayıblar.

Qərb kəşfiyyat xidmətlərindən birinin daxili sənədində Rusiyanın regiondakı MKİ obyektlərinin hədəfə alınmasında rolu olması ehtimalından söz açılır.

**Rusiyanın İrana hədəf koordinatları ötürə biləcəyi ilə bağlı narahatlıqlar ötən həftəsonu daha da güclənib.** İran İordaniyadakı ABŞ hərbi bazasına ballistik raketlərlə zərbələr endirib; iki hərbçi həlak olub.

Ağ ev mövzu ilə bağlı sorğunu MKİ-yə yönləndirsə də, idarə rəsmi açıqlama verməyib. Eyni zamanda, İranın BMT-dəki nümayəndəliyi, Rusiya Müdafiə Nazirliyi və Səudiyyə Ərəbistanı hökuməti də "Reuters"in suallarını cavablandırmaqdan yayınıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur